MƏHƏMMƏD LAÇINLI

# Poeziya buketi, nağmə çələngi

Azərbaycan Milli
Kitabxanası

ADİLOĞLU
Bakı - 2017

# FİZULİ

Yaxın Şərqdə qəzəllərin mülkünə xandı Fizuli
Eşq atəşinə Məcnundan füzun yandı Fizuli

Dastanda Firdovsi, rübayidə Xəyyam ad aldı
Şeyirdə misilsiz qəzəlxan adlandı Fizuli

Əxlaqi didaktik şeyir deyəndə Sədi Şirazi
Qəzəldən söz düşəndə oncə yadlandı Fizuli

Mənim qədər yazıq Fərhadda qəm olsaydı əgər
Bir ah ilə Bisitunu yarardı-sandı Fizuli



Dövründə "rüşvət deyildir deyə salam almayanlara"
Bəxtikəm , inan ki, dözməyib odlandı Fizuli.